AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

**Azərbaycan Respublikasında fəaliyyət göstərən**
**Transmilli şirkətlər qruplarının nəzərinə**

Məlum olduğu kimi, “Vergitutma bazasının aşınması və mənfəətin köçürülməsi (bundan sonra - BEPS) layihəsində assosiativ üzv qismində İnklüziv Çərçivə”yə qoşulmaq barədə Azərbaycan Respublikası ilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (bundan sonra - İƏİT) arasında məktublar mübadiləsi formasında bağlanmış Razılaşmanın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu 11 oktyabr 2022-ci il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmişdir.

BEPS-in 13-cü Fəaliyyətinin (Transfer qiymətləri üzrə sənədləşmə və Ölkələrarası hesabatlılıq) icrası məqsədilə, Azərbaycan Respublikasının Prezidentinin 16 fevral 2021-ci il tarixli 2507 nömrəli Sərəncamı əsasında müvafiq sahədə beynəlxalq mübadiləni təmin etmək məqsədilə Azərbaycan Respublikası “Ölkələrarası Hesabatların Mübadiləsinə dair Səlahiyyətli Orqanların Çoxtərəfli Sazişi”nə (bundan sonra – Çoxtərəfli Saziş) 12 mart 2021-ci il tarixində qoşulmuşdur.

Azərbaycan Respublikasının Çoxtərəfli Sazişə qoşulmaqla üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsi məqsədilə Azərbaycan Respublikasının 29 noyabr 2019-cu il tarixli 1704-VQD nömrəli Azərbaycan Respublikasının Qanunu ilə Vergi Məcəlləsinə müvafiq dəyişikliklər edilmiş və “Transmilli şirkətlər qrupuna daxil olan Azərbaycan Respublikasının rezidenti olan müəssisənin hesabatının vergi orqanına təqdim edilməsi müddəti, forması və qaydası” (bundan sonra - Qayda) Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 28 aprel 2020-ci il tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Ölkələrarası hesabatın təqdim edilməsinə dair beynəlxalq standartların, Azərbaycan Respublikasının qoşulduğu Çoxtərəfli Sazişin və daxili qanunvericiliyin əsas tələbi transmilli şirkətlər qrupunun konsolidə edilmiş illik maliyyə hesabatlarına əsasən qrupun məcmu gəlirlərinin (bundan sonra – limit) **750 milyon avro** və ya onun manat ekvivalentindən çox olmasıdır.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 28 aprel 2020-ci il tarixli 1 nömrəli qərarı ilə təsdiq edilmiş “Transmilli şirkətlər qrupuna daxil olan Azərbaycan Respublikasının rezidenti olan müəssisənin hesabatının vergi orqanına təqdim edilməsi

müddəti, forması və qaydası"nın 3.2.-ci maddəsinə əsasən Azərbaycan Respublikasında Transmilli şirkətlər qrupunun əsas müəssisəsi və ya müvəkkil müəssisəsi olmadıqda, onun Azərbaycan Respublikasında yerləşən rezident Qrupdaxili müəssisəsi aşağıdakı hallarda hesabat verilən ilin sonunadək Azərbaycanın Respublikasının vergi orqanına Ölkələrarası hesabatı təqdim etməlidir:

- Transmilli şirkətlər qrupunun Əsas müəssisəsi və ya Müvəkkil müəssisə özünün rezident olduğu ölkədə Ölkələrarası hesabatın verilməsi öhdəliyini qanunvericiliyə əsasən daşımadıqda,
- Əsas müəssisənin və ya Müvəkkil müəssisənin rezidenti olduğu ölkə Azərbaycanın Respublikasının da tərəfdar çıxdığı beynəlxalq müqaviləyə qoşulmasına baxmayaraq Ölkələrarası hesabatın təqdim edilməsi üçün Azərbaycan Respublikasının vergi orqanları ilə Səlahiyyətli Orqanlar arasında Razılaşması olmadıqda və ya
- əsas müəssisənin və ya müvəkkil müəssisənin rezidenti olduğu ölkə tərəfindən öhdəliklərin yerinə yetirilməməsi barədə Azərbaycan Respublikasının vergi orqanları tərəfindən Azərbaycanda rezident olan qrupdaxili müəssisəyə məlumat göndərildikdə.

Transmilli şirkətlər qrupunun əsas müəssisəsi vergi məqsədləri üçün rezident olduğu ölkədə Ölkələrarası hesabatın təqdim edilməsini şərtləndirən və **Avrodan fərqli valyutada olan limiti keçmədiyi halda, valyuta məzənnəsi fərqlərinə görə Azərbaycan Respublikasında avro valyutasında tətbiq olunan limiti keçə bilər.** Bu halda, Transmilli şirkətlər qrupunun əsas müəssisəsi vergi məqsədləri üçün rezident olduğu ölkədə müəyyən edilmiş limiti keçmədiyi və bununla da Ölkələrarası hesabatın təqdim edilməsi öhdəliyi yaranmadığı üçün, Qaydaların tələblərinə əsasən Azərbaycan rezidenti olan qrupdaxili müəssisənin Azərbaycanın vergi orqanına Ölkələrarası hesabatı təqdim etmək öhdəliyinin yaranmasına baxmayaraq, müvafiq limit 750 milyon avronu keçsə də, Transmilli şirkətlər qrupunun əsas müəssisəsinin rezident olduğu ölkədə 2015-ci ilin yanvar ayında müəyyən olunan milli valyutada 750 milyon avroya yaxın ekvivalent olan limiti keçmədiyi halda, **Transmilli şirkətlər qrupundan Azərbaycanda Ölkələrarası hesabatı təqdim etmək tələb olunmur.**

***<u>MİSAL:</u>***

Transmilli şirkətlər qrupunun "UPE X" əsas müəssisəsi "A" ölkəsində, qrupdaxili müəssisələrindən biri isə Azərbaycan Respublikasında rezidentdir. "A" ölkəsi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının müəyyən etdiyi standartlara uyğun olaraq Ölkələrarası hesabatlılığa dair qanunvericiliyi qəbul edərək hesabatın təqdim edilməsi üçün 850 milyon ABŞ dolları limiti müəyyən etmişdir. Bu limit 2015-ci ilin yanvar ayında 750 milyon avroya yaxın ekvivalent hesab edilir.

Cari hesabat dövründə "UPE X" müəssisəsinin gəliri 840 milyon ABŞ dolları təşkil etdiyi halda, rezidenti olduğu "A" ölkəsində Ölkələrarası hesabatın təqdim edilməsi öhdəliyi yaranmayacaqdır. Həmin dövrdə tətbiq olunan məzənnə ilə avroya çevirildikdə, "UPE X"

müəssisəsinin gəliri 750 milyon avronu keçdiyi üçün, Qaydaların tələblərinə əsasən Azərbaycan Respublikasının rezidenti olan qrupdaxili müəssisənin qrup adından Ölkələrarası hesabatı vergi orqanlarına təqdim etmək öhdəliyi yaranır. Lakin, bu öhdəlik **yalnız valyuta məzənnəsi fərqləri səbəbindən yarandığından** və bununla da **əsas müəssisəsi öz ölkəsində limiti keçmədiyi üçün**, Azərbaycan Respublikasının vergi orqanı Azərbaycan Respublikasının rezidenti olan **qrupdaxili müəssisədən hesabatın təqdim edilməsini tələb etməyəcəkdir.**

***DÖVLƏT VERGİ XİDMƏTİ***